# Qacarlar

**I Şah Təhmasib dövrü (1524 – 1576)**

Təhmasib çağında Qacarlar birinci dərəcəli boylar arasına girmişlər və onlardan bir çox əmirlər mühüm mövqelərə yüksəlmişlər. Bu boydan Əçə Sultan hicri 939-cu (1532-1533) ildə Bitlis hakimi Şərəf Bəyə yardıma göndərilmiş isə də, hər ikisi Üləma ilə etdikləri savaşda yenilmişlər və hətta Bitlis hakimi də öldürülmüşdü. Daha öncə adı keçən Yaqub Sultana gəlincə, hicri 944-dən sonra ondan bəhs edilmir. Adı keçən Qacar bəyi ilə çağdaş olan Budaq Xan hicri 943 və ya 944-də (1537) fəth edilən Qəndəhar və Zəmindavər valiliyinə təyin edildi. Hicri 967-də (1559-1560) Xorasanda bir yerin valisi olan Qacar Budaq Sultan başqa bir əmir olsa gərəkdir. Qaya Bəy də (yaxud Qayapa), bunlar ilə çağdaş idi. Hicri 965-də (1558) adı keçən Qaya Oğlu Əhməd Bəy hər halda Qaya Bəyin oğludur. Qacar əmirlərindən biri də Ziyad Oğlu Şah Verdi Sultandır. 18-ci yüzilin sonlarında İranda iqtidarı əlinə keçirən Qacar xanədanı Ziyad Oğullarından gəlməkdədir. Ziyadın 15-ci yüzilin sonu və 16-cı yüzilin başlarında yaşadığından çox az şübhə edilir. Qacarların yurdu Arranda Gəncə yörəsi idi. Oymağın buraya 15-ci yüzilin sonlarına doğru Boz Oxdan (Yozqat) gəldiyi daha öncə söylənmişdi. Hicri 944-cü (1537-1538) ildə Qəndəhar səfərində bulunan Şah Verdi, bundan sonrakı bəlli-başlı səfərlərə qatılmışdır. Özü, atayurdu, mərkəzi Gəncə olan Qarabağ valisi idi. Şah Verdi Sultan hicri 975-də (1567-1568 = Bars ili) ölmüş və yerinə İbrahim Bəy (Sultan) keçmişdir. Digər bir Qacar əmiri də Gökçə Sultan olub, İraqeyn Səfəri münasibətiylə adı keçir. Hicri 946-da (1539-1540) Gürcüstana bir axın edən Gökçə Sultan, hicri 954-də (1547-1548) Şirvan valisi Bəhram Mirzənin lələsi olmuş və hicri 962-də Türkmən Aba və Özbək Əli Sultan ilə edilən savaşda ölmüşdür. Hicri 951-ci (1544) ildə bayraqdar olan Əbül-Qasım Xüləfa, hicri 961-də (1554) barış üçün elçiliklə Qanuniyə göndərilən Şah Qulu (Ağa) Bəy Qacarlardan olduğu kimi, hicri 958-də Şəki valiliyinə təyin edilən Toyqun Bəy və onunla çağdaş olan Bayram Bəy, hicri 967-də (1559-1560) elçilik ilə İstanbula göndərilən Yüzbaşı Ağcasaqqal Əli Ağa, hicri 975-də (1567-1568) adı keçən Mirzə Əli Bəy, hicri 976-da zikr edilən Əli Qulu Bəy də eyni oymağa mənsub idilər. Təhmasibin ölümü əsnasındakı başlıca Qacar bəylərindən biri Şah Verdi Sultanın oğlu Yusif Xəlifə idi; Qarabağ valiliyinə və Sultan Əli Mirzənin lələliyinə təyin edilmiş isə də, hökmdarın ölümü əsnasında hələ Qəzvində bulunurdu. Mirzə Əli Sultan da bu əsnada mərkəz əmirlərinin ən mötəbərlərindən olub divan bəyi idi. Əli Xəlifəyə gəlincə (Ağcalı oymağından), o, bu əsnada Damğan və Bistam valisi idi. Bunlardan başqa Yusif Xəlifənin qardaşı Süleyman Bəy ilə Şəkəm Oğlu Süleyman Sultanın da əmirlik mərtəbəsinə yüksəldikləri anlaşılır.

**II Şah İsmayıl və Sultan Məhəmməd Xudabəndə dövrü (1576 – 1587)**

Qacarlar yenə Qarabağ bölgəsindəki yurdlarında otururdular. Bu əsnada başları olan Qarabağ bəylərbəyisi İmam Qulu Xan, Osmanlı gücləri ilə çarpışaraq yurdunu qorumuş, Fərhad Paşa ordusunun Qarabağı fəthi üzərinə oymağının mühüm bir qismi ilə Arasbarana (Qaradağ) çəkilmişdi. Özü Qacarın Yıva (yaxud bəlkə Yuva) obasından idi. Hicri 996-cı (1588) ildə adı keçən yerdə öldü və məmuriyyəti Ziyad Oğullarından Şah Verdi Sultanın nəvəsi və Xəlil Xanın oğlu Məhəmməd Xana verildi.

**I Şah Abbas dövrü (1587 – 1629)**

Daha öncə bildirildiyi kimi, Osmanlı fəthi əsnasında Çuxur Sə'd vilayətində Ustacalulardan bir bölük ilə Sə'dlü (Sa'dlu) və İspirlü kimi oymaqlar, Qarabağda Qacarlar, Otuz İki, Qazaqlar İyirmi Dörd, Qaramanlu və digər bəzi oymaqlar, Şirvanda Rumluların çoxsaylı bir qismi ilə Təkəlüdən bir bölük yaşayırdı. Qarabağın Osmanlı idarəsinə keçməsi üzərinə, Qacarların bir qismi Osmanlı idarəsində qalmaq istəməyərək Arazın bərisindəki Səfəvi torpaqlarına köç etdilər. Bunlar orada ilk zamanlarda pərişan bir durumda idilər. Şah Abbas Qaramanlu Fərhad Xanı öldürdükdən sonra Astarabad valiliyini hicri 1007-də (1598-1599) Ziyad Oğullarından və etibarlı əmirlərdən Qacar Hüseyin Xana vermişdi. Şah Abbas Osmanlıların idarəsinə girmiş əyalətləri geri qaytarmaq üçün hərəkətə keçincə, Hüseyin Xanı da Qarabağın fəthinə məmur etdi. Osmanlı idarəsində qalmış olan Qacarların çoxu və ya hamısı Hüseyin Xana qatıldılar (hicri 1012 = 1603-1604). Qarabağ fəth edildi (hicri 1015 = 1606-1607). Ancaq Hüseyin Xan, Qarabağ camaatının onu şikayət etmələri üzündən gözdən düşdü və Qarabağ valiliyi yenə Ziyad Oğullarından Xəlil Xan oğlu Məhəmməd Xana verildi. Hüseyin Xandan bir daha bəhs edilmədiyinə görə, Abbasın onu öldürtmüş olması ehtimaldır. Astarabad isə hicri 1012 tarixindən başlayaraq Yusif Xan, Fəridun, Xosrov Xan kimi Qul dəstəsindən əmirlər tərəfindən idarə edildi. İlk Qarabağ valisi Məhəmməd Xana gəlincə, bu əmir hicri 1024-də (1615) Gürcülər ilə edilən bir savaşda öldürüldü. Ondan sonra Qarabağ valiliyində yenə Ziyad Oğullarından Məhəmməd Qulu Xanı görürük. İskəndər Bəy bir şey söyləməməklə yanaşı, Məhəmməd Qulu Xanın sələfinin oğlu olması ehtimaldır. Məhəmməd Qulu Xan da (hicri 1036 = 1626-1627) vəzifədən çıxarılmış və Qarabağ bəylərbəyiliyi və Qacar oymağı rəisliyi qul dəstəsindən Davud Xana verilmişdir. Abbasın ölümü əsnasında mövqe sahibi ancaq iki Qacar əmirinin bulunması onların da nə qədər gözdən düşmüş olduqlarını göstərir. Bunlardan biri Çuxur Sə'd bəylərbəyisi Əmir Günə oğlu Təhmasib Qulu Xan, digəri də Bərdə valisi İyirmi Dörd Peykər Xan idi. Qacar boyunun başlıca obaları bunlardı: Ağca Qoyunlu, Ağcalu, Şam Bayatı (Bayadı), Yıva, İgirmi Dört.

Bu obalara keçmədən öncə, Qacar boyunun təşəkkülü ilə ilgili görüşümüzündən bəhs etmək istərdik.

Qacar boyunun adının bir oymaqdanmı, yoxsa bir şəxsdənmi gəldiyi haqqında heç bir şey söylənilə bilməz. Çünki hər iki ehtimal da variddir. 16-cı yüzildə Hələb Türkmənləri arasında Qacar adlı bir oymaq görünməkdədir ki, hicri 978-ci (1570-1571) ildə bu oymaq 780 vergi nüfusuna sahib idi. 16-cı yüzildə Türkiyədə Qacar adında təsbit edilən ən mühüm oymaq budur.

18-ci yüzilin başlarında Günbatı Anadoluda, Aydın tərəflərində, müxtəlif kəndxudaların idarəsində olmaq üzrə, Qacar adlı bir oymaq görünməkdədir ki, bunun yuxarıda qeyd edilən Qacar oymağı ilə münasibəti haqqında indilik əlimizdə bir dəlil yoxdur. Qacar Xəlil və Qacar Hacı Hasan kəndxudaların idarəsində bulunan bu Qacarların, hicri 1144-də (1731-1732) Çuxur-Ovada oturduqdan sonra Aydın sancağında qışlamalarına və Axur (Axır), Qonalar və Sultan Dağlarında yaylamalarına dövlət tərəfindən icazə verilmişdir. Bu Qacarların mühüm bir qismi qışlaqları olan Aydın bölgəsində yerləşmişdir. Bugün onların hamısı özlərinin Qacar oymağından gəldiklərini bilməkdədirlər.

İndi Qacar obalarını incələməyə keçə bilərik:

a. Ağca Qoyunlu: Qacarın Ağca Qoyunlu obası, Anadoludakı böyük Ağca Qoyunlu oymağının bir qolundan başqası deyildir. Özəlliklə çoxsaylı olmasından dolayı Ağca Qoyunlu oymağını doğrudan doğruya Oğuz boylarından birinin obası fərz etmək yanlış bir görüş sayılmaz. Araşdırmalarımıza görə, Ağca Qoyunlular, Dülqədirli elini təşkil edən ən güclü boylardan biridir. Bu oymağın ana qolu 16-cı yüzilin birinci yarısının ortalarında Maraş-Əlbistan bölgəsində yaylamaqda və Hələb-Antakya tərəflərində qışlamaqda idi. Eyni illərdə oymağın bir qolu Diyarbəkir bölgəsində yaşayan Boz Ulus arasında, bir qolu Yeni İldə (yurdu Sivas-Gürün arası), digər bir qolu da Boz Oxda, Gədük (Şarqışla) yörəsində (bunların 1527-də Qələndər Çələbi

üsyanına qatıldıqlarından öncə bəhs edilmişdi), çoxsaylı bir qolu da Ulu Yörük arasında yaşamaqda idi. İrana Qacar obaları arasında gedən Ağca Qoyunluların, Boz Ox qoluna mənsub olduqlarından çox az şübhə edilir. Bugünkü duruma gəlincə, Ağca Qoyunlular Fəratın günbatısından başlayaraq yurdun demək olar hər tərəfinə dağılmış olmaq üzrə, tamamən torpağa bağlanmışdırlar. Hətta hicri 1157-ci (1744) ildə İrandan Türkiyəyə köç edən və rəsmi vəsiqələrdə Əcəm Türkmənləri deyilən oymaqlar arasında onlardan da bir obanın bulunduğu görünür. Ağca Qoyunlular, başlıca Maraş və Əlbistan bölgələrindən başqa, Çuxur-Ovada, Qazi Antep, Qırşəhir, Qonya, Afyon, Balıqəsir və Aydın tərəflərində yerləşmişdirlər.
Şah Təhmasib çağında Qacar Ağca Qoyunluların başında Əli Xəlifənin bulunduğundan bəhs edilmişdi. Abbas çağında adı keçən obanın ən ünlü şəxsiyyəti Əmir Günədir. Bu əmir Çuxur Sə’d əyalətinin fəthində mühüm xidmətlər ifa etmiş və xidmətlərinin qarşılığı olaraq bu əyalətin bəylərbəyiliyi özünə verilmişdir. Əmir Günə Xan, ölümünədək (hicri 1035 = 1623) mövqeyini qorumuş və Şah Abbas tərəfindən ona “Saru Aslan” ləqəbi verilmişdir. Əlavə olaraq Səfəvi hökmdarı Çuxur Sə’d bəylərbəyiliyinə də Əmir Günənin oğlu Təhmasib Qulunu təyin etmişdir. Sultan IV Murada Rəvanı təslim edən və Osmanlı tarixçilərinin Əmir Günə Oğlu dedikləri bax bu Təhmasib Qulu Xandır. Sultan IV Muradın təvəccehinə nail olan Əmir Günə Oğlunun Boğaziçində bir səmtdə oturduğunu və buranın Əmir Günə ilə ilgili olaraq bu günədək Əmirgan adı ilə anıldığını bilirik.

b. Ağcalu: Ağcalu obası da Boz-Oxda Sivas-Qaysəri arasında (Gədük), Qarı Daşı və ili Su yörələrində yaşayan böyük bir oymağın qoludur. Təhmasib çağında olmaq üzrə bu obadan ancaq Əli Xəlifəni tanıyırıq.
c. Şam Bayatı-Şam Bayadı: Şam Bayatları da Boz-Oxda Gədük yörəsində yaşamaqda idilər. Bunlar 16-cı yüzilin ilk yarısında qışı Hələb bölgəsində keçirirdilər.
d. Yıva: Bu adda Türkiyədə Hələb Türkmənləri, Dülqədir Eli ilə Yeni İldə oymaqlar görünməkdədir. Qacarın Yıva obasından ən tanınmış əmir, İmam Qulu Xan idi. Uzun illər Qarabağ bəylərbəyiliyində bulunan İmam Qulu Xan, Osmanlı güclərinə qarşı şiddətlə müqavimət edən dirayətli əmirlərdən biri idi. Hicri 996-cı (1588) ildəki ölümü Səfəvi dövlətini dirayətli bir əmirdən məhrum buraxmışdı.
e. İyirmi Dörd-Yirmi Dört: Bu oymaqdan Şah Abbas çağında Hüseyin Əli Bəy ilə Peykər Xanı tanıyırıq. Bunlardan Peykər Xan, Bərdə valisi olub, Şah Səfi çağında İbrahim Xan ona xələf olmuşdur. İbrahim Xan sonra Bərdə valiliyindən çıxarılmış və elçilik ilə İstanbula göndərilmişdir. Şərəf Xan İyirmi Dördün Kürd mənşəli olduğunu yazmaqdadır. Buna görə İyirmi Dörd, Türk oymaqları tarixində daima gördüyümüz kimi, Qacara sonradan qatılmış bir oymaqdır.



**© ATB — Azərbaycan Türkçülər Birliyi**